# TARİXÇİNİN GÜNEY AZƏRBAYCAN MESAJI



*Muxtar KAZIMOĞLU,*
*akademik,*
*AMEA Folklor İnstitutunun direktoru*

"Ayağına dəmir çarıq geyib, əlinə dəmir əsa alıb düşdü yolun ağına..." Nağıllardan götürdüyüm və nağıl qəhrəmanının uzun və çətin səfərə çıxmağını bildirən bu ənənəvi cümlə tarix üzrə fəlsəfə doktoru Maarif Xalıqov barədə yığcam bir yazı yazmaq istədiyim yerdə heç də təsadüfən yadıma düşmədi. Məsələ burasındadır ki, ayaqlarında dözülməz ağrı olan Maarif Xalıqov son vaxtlar sözün hərfi mənasında əlinə əsa alıb Güney Azərbaycanı qarış-qarış gəzməkdədir. Bu gəzmək adi bir turist gəzməyi yox, bir ziyalı gəzməyidir, o taylı-bu taylı Azərbaycan təəssübünü çəkən, ikiyə bölünmüş bir xalqın ağrı-acısını dərindən duyan bir tarixçi gəz-məyidir. Bunu Maarif Xalıqovun keçən il çap etdirdiyi "Bəzz qalası" kitabından görmək və duymaq o qədər də çətin deyil. Əlində əsa payi-piyada dağlar-dərələr, çətin aşırımlar qət edib Bəzz qalasının ən uca nöqtəsinə qalxmaq, gedilən yolu və qalanın ən uca nöqtəsini şərhlər və foto-şəkillərlə oxucuya təqdim etmək, təbii ki, təbiətsevərlikdən qat-qat artıq dərəcədə xalqın tarixinə ehtiramın və bu tarixi yaşatmaq istəyinin bariz ifadəsidir.

Maarif Xalıqovun Güney Azərbaycan sevdası heç də tarixi abidələri ziyarət edib həmin abidələr haqda naməlum faktları oxucuya çatdırmaqla bitmir. Bu sevda Güney Azərbaycanın dəyərli ziyalıları ilə əlaqələr qurub o tayda qorunub saxlanan zəngin mədəniyyətimiz barədə məlumat əldə etmək və həmin məlumatı mətbuat vasitəsilə soydaşlarımıza çatdırmaq kimi vacib bir vətəndaşlıq işini də əhatə edir. Maarif Xalıqov imkan daxilində gördüyü bütün bu sayaq işlərlə bizlərə bir daha xatırlatmaq istəyir ki, Arazın o tayında bizim hələ öyrənilməmiş şanlı tariximiz, sənətşünaslıq, folklorşünaslıq, ədəbiyyatşünaslıq sahələrində bir çox sirlərin açarını özündə gizlətmiş mədəniyyətimiz var, o şanlı tarixə, bir çox sirlərə açar ola biləcək o zəngin mədəniyyətə sahib çıxmağın vaxtı çoxdan çatıb.

Bir vaxtlar Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda elmi əməkdaş olan, Prezident Aparatında dövlət qulluqçusu kimi çalışan Maarif Xalıqov hal-hazırda pedaqoji işlə məşğul olur. Yaxşı bilirəm ki, o, digər sahələrdə olduğu kimi, pedaqoji işə də son dərəcə məsuliyyətlə yanaşır və balalarımıza tariximiz haqda doğru-düzgün bilik aşılamaq üçün hər cür əzab və məşəqqətə qatlaşır. Maarif müəllim Güney Azərbaycana səfərlərini də yalnız dərslər bitəndən, yay tətili başlayandan sonra gerçəkləşdirə bilir.




Bu il Maarif müəllimin 70 yaşı tamam olur. Arzum budur ki, tarixçi dostumuzun ayaqlarındakı azar-bezar çəkilib getsin, əlindəki əsanı bir tərəfə atıb Vətən torpağını əsasiz-filansız gəzib-dolaşsın, Allah verdiyi ömür payını sağlam canla yaşasın, özü, ailəsi və milləti ilə bağlı bütün istəklərinə çata bilsin!

**07.01.2020**

Kredo 2020.- 13 fevral.- S.12.